


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 58 (24.195)

*4 aprel 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini deyərək, bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı və cari ilin əvvəlindən indiyədək, İtaliyanın 3 nazirinin, həmçinin bu gün nazir müavininin ölkəmizə səfərinin əlaqələrimizin çox yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini qeyd edərək, əlaqələrimizin böyük hissəsinin energetika sahəsi ilə bağlı olduğunu dedi, hazırda Avropanın enerji təhlükəsizliyi istiqamətində atılan addımların Azərbaycan-İtaliya əməkdaşlığını daha da gücləndirdiyini vurğuladı.

Dövlətimizin başçısı, eyni zamanda İtaliyanın Azərbaycanın birinci ticarət tərəfdaşı olduğunu xatırladaraq, ticarət dövriyyəsinin əsas hissəsinin Azərbaycanın neft-qaz ixracını təşkil etdiyini dedi və bu baxımdan əməkdaşlığımızın strukturunun genişləndirilməsi ilə bağlı əlavə addımların atılmasının zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi haqqında məlumat verərək ölkəmizin İkinci Qarabağ müharibəsindən dərhal sonra Ermənistanla sülh müqaviləsinin imzalanması ilə bağlı təkliflərlə çıxış etdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Edmondo Çiriellinin ölkəmizə səfərinin məhsuldar olacağına əminliyini bildirdi.

Azərbaycan-İtaliya əlaqələrinin minilliklərlə yaşı olduğunu qeyd edən Edmondo Çirielli münasibətlərimizin kökünün hətta antik dövrlərə gedib çatdığını vurğuladı. Azərbaycanın İtaliya üçün çox önəmli ölkə olduğunu deyən qonaq Cənubi Qafqazda sabitlik baxımından ölkəmizin strateji əhəmiyyətini qeyd etdi, Azərbaycanın regionda müstəqil və suveren siyasət apardığını vurğuladı. İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini siyasi əlaqələrlə yanaşı, iqtisadi sahədə əməkdaşlığın da xüsusi əhəmiyyət kəsb etdiyini bildirdi.

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.

Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə etdi.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda “Baykar” şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğuladı və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi, hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

**AZƏRTAC**

## Ümummilli Liderin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Muzeyi ziyarət olunub




Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin və xidmətin tabeliyində olan “Yerquruluşu, Geodeziya və Kartoqrafiya” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivləri “Heydər Əliyev İli” ilə əlaqədar Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Əvvəlcə kollektiv Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Kollektivə görkəmli şəxsiyyətin dövlət idarəçiliyindəki misilsiz xidmətləri, dahi rəhbərin adını daşıyan muzeyin yaradılması barədə ətraflı məlumat verilərək bildirilib ki, 1999-cu il 10 may tarixdən fəaliyyət göstərən muzey Ümummilli Liderin sağlığında yaradılan ilk muzeydir və hazırda muzey fondunda 5 mindən çox eksponat mühafizə olunur.

Qeyd edilib ki, zəngin ekspozisiya zalında görkəmli dövlət xadiminin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, imzalanan protokol və müqavilələr, məktub və teleqramlar, istifadə etdiyi xatirə əşyaları, kitab, qəzet, jurnallar və digər dəyərli eksponatlar sərgilənir. Azərbaycanın dahi şəxsiyyətinin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən ekspozisiyada Ulu Öndərimizin uşaqlıq və gənclik dövrləri, təhsil illəri, ilk əmək fəaliyyəti, muxtar respublikaya rəhbərlik etdiyi illər və müstəqil Azərbaycanın memarı kimi fəaliyyət dövrü zəngin materiallarla nümayiş etdirilir.

Xidmətin əməkdaşları muzeyin ekspozisiyası ilə yaxından tanış olub, dahi rəhbərin zəngin dövlətçilik və ictimai-siyasi fəaliyyəti barədə ətraflı məlumat əldə ediblər.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Tələbələrdən möhtəşəm flaşmob – *Naxçıvanda Ulu Öndərin imzası ilk dəfə canlandırıldı*



Naxçıvan Dövlət Universitetində “Heydər Əliyev İli” çərçivəsində Ümummilli Liderin Azərbaycanı dünyaya tanıdan imzası canlandırılıb.

Dahi şəxsiyyətin 100 illiyinə həsr olunmuş flaşmobda 600 tələbə iştirak edib. “İmza” layihəsi çərçivəsində Ulu Öndər Heydər Əliyevin muxtar respublikada eni 15 metr, uzunluğu isə 40 metrdən ibarət ilk canlı imzası yaradılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Heydər məscidi kompleksində tikinti işləri yekunlaşmaq üzrədir



Tarixin bütün dövrlərində Azərbaycan dini, milli və mədəni dəyərlərə və müxtəlif dinlərin, millətlərin, mədəniyyətlərin, sivilizasiyaların mənsublarına münasibətinə görə, sözün əsl mənasında, tolerantlıq nümunəsi olub. Təsadüfi deyil ki, fərqli zaman kəsiklərində işğallara məruz qalmasına, müxtəlif xalqlar tərəfindən assimilyasiya cəhdlərinə baxmayaraq, Azərbaycan xalqı daim ən yüksək dini, mənəvi dəyərlərin daşıyıcısı olub və yanaşı yaşadığı xalqların mənəvi-mədəni dəyərlərinin formalaşmasına və inkişafına mühüm töhfələr verib. Bununla yanaşı, diqqətə çatdırmalıyıq ki, Ümummilli Liderimiz Heydər Əliyev siyasətinin uğurlu davamıdır ki, ölkəmizdə, eləcə də muxtar diyarımızda dini dəyərlərin qorunması istiqamətində mədəniyyət ocaqlarının, pir və imamzadə komplekslərinin, ziyarətgahların bərpası, məscid və digər dini-mədəni yerlərin inşası üstünlük təşkil edir. Muxtar respublikada 200-dən artıq məscid və 18 dini icmanın fəaliyyət göstərməsi də məhz buna əyani sübutdur.

Hazırda muxtar respublikamızda 214 məscid fəaliyyət göstərir ki, onlardan ən böyük və əhtişamlı sayılanı şəhərimizin görkəmli yerlərindən birində ucaldılan və yaxında tikintisi başa çatacaq Heydər məscidi kompleksidir. Eyni vaxtda 5 min nəfərin ibadət edə biləcəyi kompleks 6 min 400 kvadratmetr sahəni əhatə edir. Bununla belə iki minarəli 15 günbəzli məsciddə qadın və kişilər üçün ayrıca ibadət zalı və mədrəsə olacaq. Naxçıvan və Şərq memarlıq məktəbi üslubunda tikilən məscidin minarələrinin hündürlüyü 40, günbəzlərinin hündürlüyü isə 12 metrdir. Həmçinin kompleksdə Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura üçün ikimərtəbəli inzibati bina və ikimərtəbəli mərasim binası da inşa olunub. İnzibati binada iş, kəbin və digər otaqlar, mərasim evində isə qadın və kişilər üçün ayrıca bölmələr, eləcə də dəstəmazxanalar olacaq. Hazırda məscid kompleksində işlərin böyük bir hissəsi yekunlaşıb.

✍ **Məcid RƏŞADƏTOĞLU**

# Tarixin qəhrəmanlıq səhifəsi – Aprel döyüşləri

*Böyük Zəfərlə başa çatan II Qarabağ müharibəsi şanlı tariximizə qızıl hərflərlə yazılıb. Bu Qələbə nəticəsində 30 illik işğal altında qalan torpaqlarımız azad edilib və qədim yurdumuz Qarabağa Böyük Qayıdışın əsası qoyulub. Aydındır ki, böyük Zəfərə gedən yol heç də asan olmayıb və böyük güc, qüdrət, əzm hesabına əldə edilib. Bəs bu yol haradan, necə başlanıb?*

### Böyük Zəfərin başlanğıcı Aprel döyüşlərindən yeddi il ötür

Tarixə aprel müharibəsi və ya dördgünlük müharibə kimi yazılan bu hərbi münaqişə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş verib. Həmin gün Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu Azərbaycan mövqeləri və yaşayış məntəqələrini güclü artilleriya atəşinə tutub. Cəbhənin Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə Ermənistan silahlı bölmələrinə layiqli cavab verilib. Bu təxribat nəticəsində hərbçilərimizdən şəhid olan və yaralanan, mülki şəxslər arasında azyaşlı uşaqlar da daxil olmaqla həlak olanlar var idi. Aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər ordumuzun bölmələri tərəfindən azad olunub, aprelin 4-ü Ermənistan itirilmiş mövqelərini geri qaytarmaq üçün cəbhənin, əsasən, Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edərək təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tutub. Aprelin 5-də ordumuz Xocavənd-Füzuli istiqamətində erməni qüvvələrinin 2 ədəd tankını heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikasını sıradan çıxarıb. Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilən razılaşmaya əsasən həmin gün Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılıb. Lakin buna baxmayaraq, Ermənistan aprelin 5-də Mehri, Sisian və Cermuk rayonları ərazisindəki mövqelərdən iriçaplı silahlar və qumbaraatanlardan Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqelərimizi atəşə tutub. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun qüvvələri qarşı tərəfi dəqiq cavab atəşi ilə susdurub, eyni zamanda Ordubad rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələri qarşı tərəfin atəş nöqtəsi və mühəndis-istehkam qurğusunu darmadağın edib.

### Qalibiyyətə aparan döyüşlər

Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnən döyüşlərdə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətindəki yollar azad edilib. Dörd gün davam edən Aprel döyüşlərindən sonra may ayında Ermənistan və Azərbaycan prezidentləri Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə XİN rəhbərlərinin iştirakı ilə Vyanada görüşüb, iyunun 20-də Sankt-Peterburqda Rusiya prezidentinin iştirakı ilə üçtərəfli danışıqlarda münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması haqqında razılıq əldə edilib. Atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan tərəfi tez-tez sabitliyi pozaraq Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutub, dinc əhaliyə qarşı cinayətlər törədiblər. Belə hadisələrdən biri də 2017-ci ilin iyulunda Füzulinin Alxanlı qəsəbəsinin Ermənistan silahlı qüvvələri tərəfindən minaatanlar və qumbaraatanlardan atəşə tutulması nəticəsində biryaşlı Zəhra və nənəsinin qətlə yetirilməsidir. Həmişə olduğu kimi, dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar bu hadisəyə də biganə qalıb.

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Statistikaya nəzər salanda məlum olur ki, 320-dən artıq düşmən məhv edilib və 500-dən artıq hərbi qulluqçu yaralanıb. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılıb, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edilib. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edilib. Aprel döyüşləri bir neçə il sonra əldə ediləcək tarixi Zəfərin hərbi-siyasi təməlini qoydu.

Qarşı tərəf isə döyüşlər zamanı Azərbaycana qarşı genişmiqyaslı informasiya müharibəsi də apardı. Həmçinin bir çox ölkələr Azərbaycanla həmrəylik nümayiş etdirib. Türkiyə prezidenti Azərbaycanla Ermənistan qoşunlarının təmas xəttində baş verən silahlı toqquşma zamanı Azərbaycan Ordusunun hərbi qulluqçularının şəhid olması ilə bağlı ölkə başçısına başsağlığı verib, həmişə Azərbaycanın yanında olduqlarını bildirib.

2016-cı il aprelin 19-da Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Aprel döyüşlərində böyük şücaət və qəhrəmanlıq göstərmiş Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü “Azərbaycanın Milli Qəhrəmanı”, 7 üzvü “Azərbaycan Bayrağı” ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri, 19 üzvü “Vətən uğrunda” medalı, 43 üzvü “İgidliyə görə” medalı, 45 üzvü “Hərbi xidmətlərə görə” medalı, 2 üzvü “General-mayor” ali hərbi rütbəsi ilə təltif edilib.

### İşğaldan azad olunmuş ərazilər bərpa edilir

Aprel döyüşlərində ordumuzun əks-hücum əməliyyatı nəticəsində Lələtəpə yüksəkliyi alındı, 1994-cü ildə düşməndən azad edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi təmin olundu, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində Azərbaycan bayrağı dalğalandırıldı. Dövlət başçısının 2017-ci il yanvarın 24-də imzaladığı “Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında” Sərəncamı Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasına əlverişli şərait yaratdı. Dövlət başçısının xüsusi diqqət və qayğısı ilə həyata keçirilən bərpa işlərindən sonra Cocuq Mərcanlı öz sakinlərini qəbul etdi. Böyük Qayıdışın başlanğıcı olan bu kənd bir gün düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunacağına da mühüm mesaj idi. Yeni salınan qəsəbənin açılışında iştirak edən ölkə başçısı demişdir: ***“Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır”.*** Aprel döyüşlərindən 2 il sonra Azərbaycan Ordusu işğalçılar üzərində növbəti qələbəsini əldə etdi. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndinin işğaldan azad olunması ordumuzun gücünü, qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi.



Aprel döyüşləri Azərbaycan Ordusunun hərbi qüdrətinin ilk uğurlu nümayişi, Günnüt zəfəri isə Azərbaycan Ordusunun böyük manevr qabiliyyətini bir daha təsdiqlədi. Günnütün işğaldan azad olunması ilə birlikdə ordumuz daha əlverişli mövqelərə sahiblənib, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (ermənilər adını dəyişdirərək Areni qoyublar) nəzarət altına keçib. Əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verib. Bu yüksəkliklərin əldə edilməsi nəticəsində Azərbaycan strateji kommunikasiyalara və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edə bildi. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanları bir çox informasiyanın əldə edilməsində də mühüm əhəmiyyət kəsb etdi.

### Aprel döyüşləri göstərdi ki

Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan Ordusu güclü, qüdrətli, yenilməzdir, xalqımız qəhrəman, əzmkar xalqdır. İşğalla heç vaxt barışmayacağımızı, Qarabağ münaqişəsinin həllinin bizim üçün prioritet məsələ olduğunu bir daha göstərdi. Ermənistanın uzun illər ərzində öz ordusu haqqında yaratdığı miflər, əfsanələr darmadağın edildi, güclü ordunun Azərbaycan Ordusu olduğunu göstərdi. Göstərdi ki, xalq-iqtidar birliyi möhkəm olan yerdə Qələbə əldə edilməsi qaçılmazdır. Ermənistanın və onun rəhbər şəxslərinin döyüş və siyasi meydanda acı məğlubiyyəti Ermənistanın işğal edilmiş torpaqlarımızı uzun müddət işğal altında saxlaya bilməyəcəyini təsdiq etdi. Onu da göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Prezident cənab İlham Əliyev demişdir: ***“Mən bunu dəfələrlə demişəm ki, Ermənistanın bir ölkə kimi bundan sonra da yaşaması üçün yeganə yol qonşularla münasibətləri tənzimləməkdir. Bunun üçün də yeganə yol var. Bu yol ondan ibarətdir ki, bizim işğal edilmiş torpaqlardan işğalçı qüvvələr qeyd-şərtsiz və dərhal çıxmalıdır. Bu baxımdan bu döyüşlərin çox böyük təsiri oldu. Bu təsir bu gün də özünü göstərir. Bu döyüşlər Azərbaycan xalqının, dövlətimizin, ordumuzun gücünü əyani şəkildə göstərdi. Göstərdi ki, son illər ərzində ordu quruculuğuna yetirilən diqqət, aparılan siyasət, maddi-texniki bazanın möhkəmləndirilməsi, ordumuzun döyüş potensialının gücləndirilməsi, bax bu nəticələrə gətirib çıxarır”.***

Dövlət başçısının rəhbərliyi ilə ötən illər ərzində ölkəmizin iqtisadiyyatı möhkəmləndirildi, ordumuzun gücü daha da artırıldı. Azərbaycan Ordusunun güclü texnikası, müasir silahlarımız hər an düşmənin istənilən strateji və hərbi obyektini məhv etməyə hazır vəziyyətə gətirildi. Dövlətimiz bu məsələnin sülh yolu ilə həllinə çalışsa da, Ermənistanın davam edən işğalçı, təxribatçı fəaliyyəti, verdiyi cəfəng bəyanatlar səbri tükəndirdi.

### Aprel döyüşlərində əldə edilən hərbi uğur xalqımızı Böyük Zəfərə apardı

2017-ci ildə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşü zamanı dedi: ***“Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir...Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir”.***

Aprel döyüşləri xalqımızın minlərlə vətənpərvər, igid oğlunun müqəddəs Vətən torpağının hər qarışı uğrunda canından keçməyə hər an hazır olduğunu mənfur düşmənə, eləcə də bütün dünyaya bəyan etdi. Aprel döyüşlərindəki qələbəmizin davamı olaraq 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən şanlı Vətən müharibəsi xalqımızı əbədi və əzəli torpağımız olan Qarabağa qovuşdurdu. Cocuq Mərcanlıdan başlanan şərəfli yol Şuşada böyük Zəfərlə bitdi. Aprel döyüşləri zamanı öz qəhrəmanlıqları ilə tanınmış peşəkar hərbçilər general Mais Bərxudarov və polkovnik Şükür Həmidov 2020-ci ilin payızında torpaqlarımızın azad edilməsi uğrunda başlayan Vətən müharibəsində yenidən ön sırada idilər. Aprel döyüşlərində göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Şükür Həmidov 44 günlük Vətən müharibəsində ata yurdu Qubadlıyadək şanlı döyüş yolu keçərək məhz doğma kəndinin yaxınlığında qəhrəmancasına həlak oldu.Bu gün işğaldan azad edilmiş ərazilərimizin səmasında üçrəngli bayrağımız qürurla dalğalanır. Bu Zəfərə hər zaman milli birlik və bərabərlik nümayiş etdirən, işğalla barışmayan xalqımızın əzmi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin güclü, düşünülmüş siyasəti, Azərbaycan Ordusunun, əsgərinin cəsurluğu, fədakarlığı və rəşadəti hesabına nail olduq. Zabit və əsgərlərimizin hər biri cəbhədə öz canları-qanları bahasına əsl fədakarlıq göstərərək ən uca zirvəyə – şəhidlik zirvəsinə yüksəldi. Bu gün istər, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərərək şəhid olmuş mayor Rasim Məmmədov, leytenant Qabil Orucəliyev və digər Vətən oğullarının, istərsə də Vətən müharibəsində, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ruhu daim yaşadılır, onların, qazilərimizin qəhrəmanlıqları gələcək nəsillər üçün örnək sayılır.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Yeni monoqrafiya təqdim olunub



*AMEA Naxçıvan Bölməsində Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun yeni nəşr olunmuş “Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə” monoqrafiyasının təqdimatı keçirilib.*

Təqdimat mərasimini giriş sözü ilə Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik çıxışı zamanı Fərman Xəlilovun elmi fəaliyyətinə nəzər salaraq bildirib ki, alimin tədqiqatlarında Hacı Mirbağır Mirheydərzadənin elmi və ictimai fəaliyyətinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Onun hələ 2005-ci ildə nəşr olunmuş “Naxçıvanı öyrənən elmi cəmiyyət” adlı kitabı bu gün də bir sıra suallara aydınlıq gətirmək üçün etibarlı mənbədir.

Bölmə sədri qeyd edib ki, monoqrafiyada din xadimi, tədqiqatçı, ölkəşünas, Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi olmuş M.Mirheydərzadənin həyatı, çoxşaxəli fəaliyyəti əsaslı araşdırılmışdır.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev tədbirdə “Mirbağır Mirheydərzadə: unudulmaz ölkəşünas, etnoqraf, tarixçi və muzeyşünas kimi” mövzusunda məruzə edib. Məruzədə M.Mirheydərzadənin həyatı haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, M.Mirheydərzadənin həmin çoxşaxəli fəaliyyəti filologiya elmləri doktoru Fərman Xəlilovun tədqiqatları sayəsində 3 fəsildən ibarət, 200 səhifəni əhatə edən monoqrafiyada əksini tapmışdır. Əsərdə ölkəşünas alimin Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkili və fəaliyyətində göstərdiyi xidmətləri, Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılmasındakı rolu əsaslı surətdə tədqiq olunmuş, Naxçıvan bölgəsinə aid folklor materialları və maddi mədəniyyət nümunələrinin toplanılmasındakı, tarixi abidələrin qeydə alınmasındakı xidmətləri araşdırılmışdır.

Əsərdə “Naxçıvan tarixi” əsərinin ilk dəfə olaraq sistemli tədqiqata cəlb edildiyini diqqətə çatdıran məruzəçi söyləyib ki, Fərman Xəlilov çox əhatəli və dərin araşdırma aparmışdır. Monoqrafiya müəllifin muzey və arxivlərdə gərgin əməyinin, “Naxçıvan tarixi” əsərinin tapılması və tədqiqata cəlb olunması üçün uzunmüddətli axtarışlarının uğurlu nəticəsidir.

Məruzənin ardından AMEA-nın müxbir üzvləri, professor Əbülfəz Quliyev və professor Hacıfəxrəddin Səfərli, Əlyazmalar Fondunun şöbə müdiri Fəxrəddin Eylazov çıxış edərək Naxçıvan mədrəsələrinin tarixən mədəni inkişafa verdiyi töhfələrdən danışıblar, M.Mirheydərzadəni numizmat, etnoqraf, arxeoloq kimi xarakterizə ediblər.

Çıxış edənlər yeni nəşrin tədqiqatçılar və bu sahəyə maraq göstərənlər üçün faydalı elmi mənbə olacağına ümidvar olduqlarını bildirərək müəllifə səmərəli elmi fəaliyyətində müvəffəqiyyət arzu ediblər.

Sonda çıxış edən əsərin müəllifi Fərman Xəlilov M.Mirheydərzadənin “Naxçıvan tarixi” əsərinin uzunmüddətli axtarışından danışıb, monoqrafiyanın ərsəyə gəlməsində əməyi olan, əsəri redaktə edən, fikir və rəyləri ilə dəstək olan alimlərə, tədqiqatçılara təşəkkürünü bildirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Xüsusi dövlət əhəmiyyətli tapşırıq

**(III hissə)**

***(əvvəli qəzetin 29 mart 2023-cü il tarixli nömrəsində)***

...Gəncədə ezamiyyətdə olduğum müddətdə vaxtım olduqca Ağstafa, Tovuz, Qazax, Şəmkir, Göygöl (keçmiş Xanlar), Tərtər, Goranboy, Mingəçevir, Yevlax və digər rayonlara gedib müəyyən əlaqələr yaradırdım. Qarabağın bəzi rayonlarına da, təbii ki, gedirdim.

Döyüş gedən rayonlarda məni ən çox maraqlandıran düşmənin taktikası idi. Həm ordularının, həm də könüllülərinin. Bu məsələləri biz Dövlət Milli Müdafiə Komitəsində müzakirə edirdik. Gəncədən Naxçıvana "Yak-40" sərnişin təyyarəsi uçurdu. Aeroportun komandiri Firudin Qasımova dedim ki, təyyarənin oturacaqları sökülüb mənim sərəncamıma verilsin. Hansı razılıq lazımdırsa rəhbərlikdən alacağam. Bir günə "Yak-40" mənə verildi. Beş tona qədər yüklə 4000 metr yüksəklikdə uçurduq. Təyyarə sürətli olduğundan gündə 3 dəfə Gəncə-Naxçıvan reysi həyata keçirirdim. "AN-26" təyyarəsinin qəhrəman ekipajı ilə görüşüb, onlara xalqımızın böyük oğlu Heydər Əliyevin təşəkkürünü bildirib, öz adımdan minnətdarlıq edib Bakıya yola saldım. Çox təəssüflər olsun ki, məndən asılı olmayan səbəblərdən qəhrəman "AN-26" ekipajının üzvləri ilə bu günə qədər görüşə bilməmişəm.

Gəncədə prospekt və küçələrdə məğarlar qurulurdu. Həmin dövrdə, demək olar ki, hər gün şəhərə bir neçə şəhid gətirilirdi. Şəhər yasa bürünmüşdü.

***

...Naxçıvan təkcə iqtisadi blokadaya alınmamışdı. Burada, eyni zamanda informasiya blokadası hökm sürürdü. Respublika televiziyasının xəbərləri videokasetə köçürülür, bir gün sonra isə Naxçıvan televiziyası ilə təqdim olunurdu. Naxçıvan həqiqətlərinin nəinki dünyaya, hətta Bakıya çatdırılması problemə çevrilmişdi. Bu problemi qismən həll etmək, Naxçıvana humanitar yardım göstərmək üçün Gəncədə Naxçıvana Yardım Xeyriyyə Cəmiyyətinin yaradılmasına icazə istədim. Ulu Öndər təklifimi bəyəndi...

Gəncədə Alimlər Evi fəaliyyət göstərirdi. Müdiri Kazım Axundov idi. Bir müddət əvvəl Fiqan müəllim məni Musa Musayevlə tanış etmişdi. Yük maşını lazım olduğu üçün gəncəlilərin "Musayevin qarajı" deyilən müəssisəyə getmişdim. Doğma övladı kimi məni qarşıladı Musa dayı. Gedək yeməkxanaya mən acmışam, – dedi, əslində, məni yeməyə dəvət edirdi. Musa dayı elə-belə kişilərdən deyildi. Babası Kalba Musa Naxçıvanda məşhur adam olmuşdu. Çəkdirdiyi kəhriz 100 ildən çoxdur ki, əhaliyə xidmət edir. Musa dayı ilə Alimlər Evinə getdik. Kazım müəllimdən cəmiyyətin mərkəzinin Alimlər Evində yerləşməsinə razılıq aldıq. Musa dayıya da, Kazım müəllimə də Allah rəhmət eləsin! Tezliklə Alimlər Evinə Gəncədə yaşayan qeyrətli naxçıvanlılar və Gəncəbasarın qəhrəman övladları toplaşdılar. Cəmiyyətə Hüseyn Əlizadəni sədr, Musa dayı ilə Firudin Şimşəyi müavin seçdik. Allah hər üçünə rəhmət eləsin! Gəncə Ağsaqqallar Şurasının Sədri Ağa Ağayev, Çingiz Sadıxov, Fəxrəddin Məmmədov, Metal bazanın müdiri Əli müəllim, Əkbər Nəsirov, Salman Məmmədov, akademik Mikayıl Rəhimov, Nurəddin Babayev, Vahid Şirəliyev, Hüseyn Vəliyev, Əli Mehdiyev, Əhməd Əhmədov, Fiqan İmaməliyev, milis polkovniki Natiq Həsənov, İbrahim Cəfərov, Rafiq və Rauf Şəfiyev qardaşları, Teyyub Hacıyev, Mərdan müəllim, Vilyam Hacıyev, Elşən Əliyev, Səməndər Qurbanov, Vaqif müəllim, milis kapitanı İbrahim, qarajın işçiləri Vaqif və Əli müəllim, Ziyad Abbasov, Arif Hüseynov, Firudin Qasımov, Eldəniz Nəcəfli, Mətləb Əliyev, Mərdan Tağıyev, Qəzənfər Əliyev, Qalib Rəhimli, Mətləb Abdullayev və digərləri cəmiyyətin ən fəal üzvləri idilər. Naxçıvana təmənnasız köməklik edən bu insanlardan dünyasını dəyişənlərə rəhmət, qalanlara cansağlığı arzu edirik. Salman Məmmədovun anası Əsmət xanım Naxçıvana gəlmiş, yüz min manatlıq dərman ləvazimatını Apteklər İdarəsinə vermiş, on min manatı Sədərəkdə müalicəyə ehtiyacı olan yaralılara paylamışdı. Cəmiyyət hər gün fəaliyyət göstərirdi. Cəmiyyət üzvlərinin, onların tələbələrinin köməyi ilə mən təyyarənin yüklənməsini də həyata keçirirdim. Həftədə bir dəfə rəhbər heyət toplanırdı. Mən Naxçıvandakı mövcud vəziyyətlə bağlı məlumat verirdim. Sonra görüləcək işlər barədə qərar qəbul edirdik. Mənim təklifimlə cəmiyyət adından Gəncədə şəhid ailələrinə, yaralılara maddi və mənəvi yardım göstərilməyə başlandı. Cəmiyyətin xətti ilə Naxçıvanın Müdafiə və İnkişaf Fonduna 2 milyon manatdan artıq vəsait köçürüldü. Cəmiyyətin qərarı ilə rəhmətlik Əkbər Nəsirov və Əli Mehdiyevin Ulu Öndər Heydər Əliyevlə görüşünü təşkil etdim. Görüşdən sonra onların Naxçıvan televiziyasında çıxışları oldu. Cəmiyyətin fəaliyyətini həmin dövrdə Türkiyədən gəlmiş "Tərcüman" qəzetinin jurnalisti də işıqlandırmışdı. Sağ qalmış qəhrəmanlarımıza Allahdan cansağlığı arzulayıram. Demək istəyirəm ki, sizin qəhrəmanlığınız heç bir zaman unudulmayacaq. Eyni zamanda Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Naxçıvan Dövlət Televiziyasının əməkdaşları, yazıçı-publisist, şair Asim Yadigar və operator Nurəddin Əliyev Gəncə şəhərinə ezam olundular. Cəmiyyətin, qəhrəman pilotların fəaliyyətlərini videolentə alaraq televiziyada işıqlandırdılar.

Həmin dövrdə Ali Məclisin Sədri Heydər Əliyev cəmiyyət üzvlərinə bir teleqram da ünvanladı: ***"Möhtərəm bacılar və qardaşlar! Gəncə şəhərində Naxçıvana Yardım Xeyriyyə Cəmiyyətinin yaranması qədim Naxçıvan diyarında böyük hörmət və minnətdarlıq hissi ilə qarşılanmışdır. Cəmiyyətin üzvlərinə, Gəncə şəhər sakinlərinə naxçıvanlıların səmimi salamını və dərin məhəbbətini bildiririk. Həmrəylik və yardım üçün minnətdarıq. Gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycanın qədim diyarları – Gəncə və Naxçıvan arasında qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayırıq. Bütün gəncəlilərə cansağlığı, səadət diləyirik!***

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev".***

***

...Ermənilər bütün cəbhəboyu sakitliyi pozmuşdular. Şahbuz rayonuna edilən hücum nəticəsində Həsən Nağıyevlə Telman Sadıxov yaralanmışdı. Həsən milis əməkdaşı, Telman müəllim isə könüllü idi. Ulu Öndər muxtar respublika üzrə ən ağır yaralıları müalicə üçün Türkiyəyə göndərdi. Onların arasında Həsən də var idi. Həkimlər onu həyata qaytara bilsələr də, ayağa qaldıra bilmədilər. Allah ona uzun ömür, cansağlığı versin.

Naxçıvan özünün ən ağır günlərini yaşayırdı. İqtisadi böhran bütün sahələrdə hiss olunurdu. Naxçıvan əhalisi isə Heydər Əliyevin ətrafında sıx birləşmişdi. Daha acı xəbərlər isə Qarabağdan gəlirdi. Bir qəhrəman şəhidimizin cənazəsi Naxçıvana gətirilirdi. Məlumatı ailənin əzizlərinə necə çatdıracağımı bilmirdim. Naxçıvan şəhidini son mənzilə yola salmağa hazırlaşırdı, böyük bir izdiham var idi. O, Qarabağdan Naxçıvana gələn ilk şəhid idi. Bu şəhid isə...


Нахчыван Мухтар Республикасы
Нахичеванская Автономная Республика
АЛИ МӘҸЛИСИН РӘЈАСӘТ ҺЕЈӘТИ
ПРЕЗИДИУМ ВЕРХОВНОГО МЕДЖЛИСА

0/62 12 ијул 1992.

Һөрмәтли Фәхрәддин Мәммәдов

Нахчыван Мухтар Республикасынын тарихин бу чәтин дөврүндә хош мүнасибәтләр көстәрдијинизә, Нахчыван әһалиси илә һәмрәј"лијинизә вә јардымыныза көрә Сизә тәшәккүр едирик.

Ишләриниздә јени уғур, һәјатынызда сәадәт арзулајырыг.

Нахчыван Мухтар Республикасы Али Мәҹлисинин Сәдри Һ.Әлијев.

...Naxçıvanda elektrik enerjisi fasilələrlə – iki saatdan bir verilirdi. Elektrik enerjisi gələn kimi hamı televizorları açıb, cəbhə xəbərləri ilə maraqlanırdı. Tarverdiyev Azər İsmət oğlu da Xocalıda baş vermiş vəhşilikləri televizordan görmüşdü. 25 yaşlı gəncin gözlərində yaş qurumurdu."Kişi olan kəs evdə oturmaz", – deyib, heç kimlə görüşmədən Bakıya, oradan da döyüş bölgəsinə getmişdi. Ana isə "iş qurmaq"adı ilə yola çıxan oğlunu səbirsizliklə gözləyirdi. O vaxtlar məşhur "Qurtuluş" batalyonunun tərkibində qısa, lakin şərəfli döyüş yolu keçmiş, şəhidlik zirvəsinə yüksəlmişdi.

Üç il öncə Azərin atası İsmət müəllim rəhmətə getmişdi. Nəinki inşaatçılar, hətta bütün əhali İsmət müəllimi bacarıqlı, işgüzar bir rəhbər, həm də xeyirxah, vətənpərvər bir insan kimi tanıyırdı. Azər evin böyük oğlu idi. Ata əvəzi üç bacıya və bir qardaşa xeyir-dua verib, toylarını edəcəkdi. Lakin Vətən məhəbbəti onu şəhidlik zirvəsinə yüksəltdi. Ulu Öndər də şəhidin doğmalarına başsağlığı verməyə gəlmişdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***

... Ali Məclisin Sədri məni növbəti dəfə yanına çağırmışdı. Mənə, sabaha un ehtiyatımız tükənir, əhali çörək problemi ilə üzləşəcək, təcili tədbirlər görmək lazımdır, – dedi. Hələ də respublika rəhbərliyi Naxçıvana ögey münasibət göstərir, Ayaz Mütəllibov isə "Naxçıvan Azərbaycanın korbağırsağıdır, onu kəsib atmaq lazımdır", – deyirdi...

...İki saatdan sonra Gəncə Şəhər Ali Məclisinin sədri Çingiz Sadıxovun yanında idim. Vəziyyəti ona bildirdim. Hökumət telefonu ilə nazir Zakir Abdullayevə zəng edib, Gəncənin fondundan 60 ton unun Naxçıvana verilməsini xahiş etdi. Axşam saat $18^{00}$-da Bakıda olmalı idim. Çingiz müəllimə Mahmud Nəbiyevin vasitəsilə Sumqayıtdan 2000 metr borunun Gəncəyə gətirildiyini bildirdim. Gəncədə Maşınqayırma zavodu fəaliyyət göstərirdi. Çingiz müəllim zavodun direktoru Eldar Qarayevə zəng etdi. Ona dedi ki, Naxçıvana təxirəsalınmadan 6 ədəd "Qrad" qurğusu hazırlanmalıdır. Sonra isə üzünü mənə tutub dedi ki, əlavə 2 ədəd qurğu dostum Namiq Həsənova məndən hədiyyədir. Bir saat sonra maşınqayırma zavodunun direktoru ilə görüşüm oldu. Söhbətimiz iki saata qədər çəkdi. Göndərilmiş borular artıq müvafiq texnoloji ardıcıllıqla emala başlanmışdı...

...Bəzi mühüm işləri gecələr görürdüm. Ona görə xidməti avtomobildən istifadə edə bilmirdim. Sürücüm çox yorulurdu. İki nəfər könüllü vətənpərvər mənə kömək edirdi. Onlardan biri Naxçıvanın Sovetabad (indiki Xətai məhəlləsi) kəndindən olan Yusif adlı şəxs "06 Jiquli" avtomobili, digəri isə Eldəniz Nəcəfli pekap "Moskviç"i ilə hər bir çağırışıma təcili cavab verirdilər. Eldənizə zəng etdim, dedim ki, saat $18^{00}$-da Bakıda olmalıyıq. Üç saat ərzində unun daşınması, təyyarəyə yüklənməsi məsələlərini həll etdim. "TU-154" sərnişin təyyarəsi ilə üç reysə unu Naxçıvana gətirdik. Gecə saat üçdə axırıncı 20 ton unu boşaldıb, Bakıya qayıtdım. Eldənizlə Bakı hava limanından ayrılanda saat $4^{00}$-ı göstərirdi. Gəncə aeroportuna çatanda saat doqquz idi. Köməkçim Süleyman və əsgərlərimiz "Yak-40" təyyarəsinin yanında məndən təlimat gözləyirdilər. Uçmağa hazırlaşırdıq ki, mühafizə xidmətinin rəisi bir nəfər könüllü əsgərin mənimlə görüşmək istədiyini bildirdi. Əsgər özünü təqdim etdi – Akif Səfərov. Atası milis podpolkovniki Mirzəmməd müəllim Naxçıvan Daxili İşlər Nazirliyində atamla bərabər işləmişdi, dost idilər. Akif Qarabağda döyüşlərdə iştirak etmiş, ağır yaralanmışdı. Müalicəsi başa çatmamışdı. Bədəni sarğılı idi. Sonralar Akif bir neçə dəfə əməliyyat olundu. Mən, döyüş və sinif yoldaşları – İbrahim Əliyev, Canpolad Səfərov, Əli Bağırov, Hikmət Əliyev Akifi heç bir zaman tək buraxmadıq. Keçdiyi döyüş yolu bir kitabın mövzusudur. Onu orada tək buraxa bilməzdim. Təyyarədə mərmilərin üzərində Akifi Naxçıvana gətirdim...

...Naxçıvandan Gəncəyə gələn sərnişinlər də bizə təmənnasız köməklik göstərirdilər. Onların arasında elə vətənpərvərlər var idi ki, günlərlə könüllü surətdə aeroporta gəlib təyyarələrin yüklənməsində yaxından iştirak edirdilər. Həmin şəxslərdən Emin Tağızadənin, Ceyhun Abdullayevin, Niyazi Cəfərovun, İlqar Sadiqovun, Abidinin adlarını, xüsusilə qeyd etmək istəyirəm. Gəncəyə qayıdanda şəhər nəqliyyat prokuroru Əli Ömərovla akademik Məmmədtağı Cəfərov onları Naxçıvana aparmağımı xahiş etdilər. Əli Ömərov deputat, eyni zamanda parlamentdə Xocalı istintaq komissiyasının sədri idi. Onlar görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşmək istəyirdilər. Görüşü təşkil etdim. Akademik Məmmədtağı Cəfərovun evini bir həftə sonra avtomat silahdan atəşə tutmuşdular. Evinə gedib kömək üçün yardımımı təklif etdim, lakin imtina etdi. Ulu Öndər prezident seçiləndən sonra Əli Ömərov Azərbaycanın Baş prokuroru oldu.

***

Rusların arasında apardığım işlər nəticə vermişdi. Mənimlə dost olub, yardımımdan istifadə etmək istəyirdilər. Təbii ki, müraciət edənləri əliboş buraxmırdım. Gəncədə müvəqqəti olacaqlarını artıq yəqin etmişdilər. İllərboyu topladıqları şəxsi ev əşyalarını Rusiyaya aparmaq istəyirdilər, ancaq bacarmırdılar. Onlara Dərbəndə qədər ev əşyalarını çatdırmaqda yardım edəcəyimi bildirdim. Bir polkovnikin əşyaları Dərbəndə çatanda çox sevinmişdi. Mənimlə dost olmuşdu. Hər cür əməkdaşlığa hazır idi. Yaxın dostları da ona güvənib ev əşyalarını mənə həvalə etmişdilər... Gecə "Kəpəz" mehmanxanasına gələndə bir nəfərin mənimlə görüşmək istədiyini bildirdilər. Mənimlə görüşmək istəyən şəxs Surət Hüseynov idi. Yevlaxda yun fabrikinin direktoru, Azərbaycanın Xalq deputatı idi...

...Təyyarə Naxçıvana rahat eniş etdi. Həmişə olduğu kimi, "yükü" sənədləşdirib, aktla Müdafiə Komitəsinin nümayəndəsinə təhvil verib, komitəyə getdim. Komitənin sədri rəhmətlik Elman Abbasovla görüşdüm. Ona dedim ki, Gəncədə bir nəfər mənimlə görüşmək istəyir, sizin də o görüşdə iştirakınız məqsədəuyğundur. Surət Hüseynovu qiyabi tanıyırdım, onunla maraqlanmışdım, ancaq görüşməmişdim. Ertəsi gün Elman bəylə Gəncəyə uçduq, Hüseyn Əlizadə ilə görüşüb, Surət Hüseynovun evinə getdik. Bizi səmimi qarşıladı. Evdə təmir işləri gedirdi. Həyətdə divara yaxın, təxminən, yüz yeşik 7.62 mərmiləri və 20 ədəd zirehli jilet gözümdən yayınmadı. Surət Hüseynov bizi həyətdəki çardağa dəvət etdi. Özümüzü ona təqdim etdik. Mənim haqqımda məlumatı var idi. Ümumi tanışlıqdan, söhbətdən sonra əsas mətləbə keçdik. Ona Naxçıvandakı ağır hərbi, iqtisadi vəziyyətdən, Ümummilli Lider Heydər Əliyevin gördüyü əsas işlərdən danışdım, ermənilərin növbəti hədəfinin Naxçıvan olduğunu bildirdim. Eyni zamanda respublika rəhbərliyi tərəfindən heç bir köməklik, yardım almadığımızı dedim. Söhbətimiz qarşılıqlı anlaşma şəraitində keçdi. İstədiyimə nail olmuşdum. Surət Hüseynov görkəmli dövlət xadimi Heydər Əliyevə böyük hörmətinin olduğunu, salamlarını ona çatdırmağı xahiş etdi. Bizi yola salarkən 5.45 və 7.62 mərmilərinə, zirehli gödəkçələrə ehtiyacımız olduğunu diqqətinə çatdırdım. Həyətdə olan yeşikləri və zirehli gödəkçələri maşına yüklədib aeroporta yola saldıq. Ayrılarkən ona sual verdim ki, dahi şəxsiyyət Heydər Əliyevi necə tanıyırsınız? Bir anlığa duruxdu. Ondan "Zaman" (Vremya) xəbərlər proqramına baxıb-baxmadığını soruşdum. Dedi ki, baxıram. Ona dedim ki, "Zaman" xəbərlər proqramını beş gün sonra diqqətlə izləsin, verilişdə bir xəbər eşidəcək, onda bu böyük siyasətçini, Naxçıvanın əsgərlərini daha yaxından tanıyacaq. "Zaman" Sovetlər Birliyinin paytaxtı Moskvadan "Ostankino" telekanalından yayımlanan ölkənin birinci kanalının verilişi idi.

Bir həftə sonra Gəncədə Surət Hüseynovla görüşdüm, əlimi sıxıb, təbrik edirəm, – dedi. Soruşdum ki, nə olub? "Zaman" xəbərlər proqramında İrəvanın yaxınlığında bir hərbi bazanın partlamasından məlumat getdiyini dedi. İki gün idi ki, ermənilər yanğını söndürə bilmirdilər.

Surət bəylə isti münasibətlər yaranmışdı. Hətta Zazalıda ruslara məxsus bir hərbi hissədə də birlikdə olmuşduq. Bir şəhidin ailəsinə birlikdə başsağlığı vermişdik. Beş dəfə bizə köməklik üçün müraciətimi yerinə yetirmişdi. Ancaq bu münasibət iki aydan çox çəkmədi. Köməkçim Süleymanın dostu Oqtay Baxşəliyevlə xidməti maşınımla Yevlaxa getmişdik. Yun fabrikində gözətçiyə mənim gəldiyimi Surət bəyə çatdırmasını xahiş etdim. O, həmişə məni gözlətmədən qəbul edirdi. Bu dəfə yarım saatdan çox gözləməyə məcbur oldum. Nəhayət, 6 nəfər silahlı mənə yaxınlaşdı, Surət bəyin yaxın qohumu Kəramət onun məni qəbul etməyəcəyini söylədi. Səbəbini soruşdum, içəri keçmək istədim. Silahlılar qarşımı kəsib imkan vermədilər. Arxamda bir şaqqıltı eşitdim. Avtomobilə əyləşəndə Süleymanla Oqtay mənim kürəyimdən vurulacağımdan qorxduqlarını dedilər. Kəramət avtomatı kürəyimə tuşlayıb, atəş üçün hazır vəziyyətə gətirmişdi. Aslanlı tayfasından heç kimə kürəyindən güllə dəyməmişdi. Allah məni saxlamışdı. Nə baş verdiyini heç cür anlaya bilmirdim...

Gəncəyə qayıtdım. Ramiz Cahangirovla görüşüm olacaqdı. Bir əməliyyat həyata keçirəcəkdik. Gecə cənub bölgəsinə Pirişibə yola çıxmalı idim. Mənimlə bərabər bir rus polkovniki və podpolkovniki olacaqdı. Məqsəd onların köməyi ilə bir ədəd tank və bir ədəd BTR-i Gəncəyə gətirmək idi. Texnikaları traylerdə gətirəcəkdim. Hər şey hazır idi. Cəlilabaddan Vaqif adlı tanışım bizi "QAZ-24" "Volqa" avtomobilində aparacaqdı. Gecə saat $3^{00}$-da rus zabitləri ilə yola çıxacaqdıq. Mehmanxanaya təzə gəlmişdim, saat $23^{30}$ idi. Bir az istirahət etmək istəyirdim ki, qapı döyüldü. Təxminən, on nəfər idilər. Başlarında da Surət Hüseynovun qohumu Kəramət. Yüksək səslə sabahdan Gəncəni tərk etməmi tələb etdi, sonra qayıtdı ki, bəs bilmirsən, burada adamları necə yandırıb yox edirlər?! Onun sözlərini ciddiyə almadım. Mənim vəzifəm var idi. Naxçıvan təhlükədə idi. Mən böyük şəxsiyyət Heydər Əliyevin tapşırıqlarını yerinə yetirməli idim. Ölümdən qorxmurdum, dəfələrlə arxamca atəş açıb, minaya salmaq istəmişdilər, hədə-qorxular isə birinci dəfə deyildi...

*(ardı var)*

**Urfullah QURBANOV**
**Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin Əks-kəşfiyyat şöbəsinin sabiq rəisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi**

## Aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində *"Mütaliə aylığı"* elan edildi



Şagirdlərin formalaşmasında, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mütaliənin rolu nəzərə alınaraq artıq bir neçə ildir ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində "Mütaliə aylığı" elan edilir. Cari tədris ilində də bu ənənə davam etdirilib. Bu məqsədlə aprelin 3-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən "Şagirdlərin formalaşdırılmasında mütaliənin rolu və əhəmiyyəti" mövzusunda tədbir keçirilib.

Tədbirdə təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən Ulu Öndər Heydər Əliyev daim gəncləri və ətrafındakı insanları mütaliə etməyə, kitabla həmsöhbət olmağa dəvət etmiş, həyatda kamil insan kimi yetişməyin, zəngin biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini bildirmişdir. Qeyd olunub ki, yaradılan şəraitdən səmərəli istifadə olunmasını, eləcə də Ümummilli Liderin bu dəyərli fikirlərini əsas tutaraq, həmçinin mütaliənin şagirdlərin formalaşmasında, milli-mənəvi və ümumbəşəri dəyərlərin təşəkkülündə müstəsna rolunu nəzərə alaraq Təhsil Nazirliyi tərəfindən şagirdlərin elmi-kütləvi və bədii ədəbiyyat nümunələrinin oxusuna təşviq edilməsi, onlarda mütaliə vərdişləri və mədəniyyətinin yaradılması istiqamətində davamlı tədbirlər keçirilir. Təkcə ötən il "Mütaliə aylığı" çərçivəsində keçirilən tədbirlərə 20 mindən artıq şagirdin cəlbinə nail olunmuşdur.

Diqqətə çatdırılıb ki, təhsil müəssisələrində şagirdlərin mütaliəyə təşviqi işini gücləndirmək məqsədilə aprel ayı ümumtəhsil məktəblərində "Mütaliə aylığı" elan edilir. Ay ərzində digər tədbirlərlə yanaşı, şəhər, rayon təhsil şöbələri tərəfindən "Ulu Öndər Heydər Əliyev və Azərbaycan kitab mədəniyyəti" mövzusunda tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodik kabinet müdiri Gülxarə Tarverdiyeva "Şagirdlər arasında mütaliə mədəniyyətinin formalaşmasında məktəbin qarşısında duran vəzifələr", Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin kitabxana müdiri Fərhadə Hüseynova "Şagirdlər arasında mütaliəyə marağın yaradılmasında məktəb kitabxanasının rolu", Heydər Əliyev adına tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Nurlana Quliyeva "Kitab və mütaliənin mənəvi inkişafımızda rolu" mövzularında çıxış edib, muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısına və ümumtəhsil məktəblərində yaradılan yüksək təhsil şəraitinə görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

**Ceyhun MƏMMƏDOV**

## *"Liderliyə gedən yol"* mövzusunda uşaqlarla görüş



Ölkəmizdə Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə bağlı silsilə tədbirlərin davamı olaraq dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin və Ordubad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevlə "Liderliyə gedən yol" mövzusunda uşaqların görüşü keçirilib.

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli görüşün mahiyyətindən ətraflı bəhs edib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət komitəsinin sədr müavini Aytən Məmmədova bildirib ki, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ölkəmizdə, eləcə də muxtar respublikada yüksək səviyyədə qeyd olunur. Əlbəttə ki, bu səbəbsiz deyil. Ümummilli Lider Heydər Əliyev öz fəaliyyəti dövründə Azərbaycan xalqının inkişaf tarixini yazmışdır. İki fərqli sistemdə Azərbaycana rəhbərlik etməsinə baxmayaraq, onun fəaliyyəti yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət idi. Ulu Öndər həmişə uşaqlara xüsusi diqqət yetirmiş, fəaliyyəti dövründə səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir. Qeyd olunub ki, əsası dahi şəxsiyyət tərəfindən qoyulmuş dövlət uşaq siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Sonda Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevlə "Liderliyə gedən yol" mövzusunda keçirilən görüşdə uşaqların şəxsi karyera və inkişafla bağlı fikir və təklifləri dinlənilib. Diskussiya şəklində keçirilən tədbirdə uşaqların gələcək planları, onları maraqlandıran digər məsələlərə dair suallar millət vəkili tərəfindən ətraflı cavablandırılıb.

Tədbir uşaqlar tərəfindən maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Təbiətə, yaşıllığa qayğı müqəddəs ənənə kimi yaşadılır



Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikamızda da müstəqil Azərbaycanın qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi geniş şəkildə qeyd olunur. Bu münasibətlə keçirilən tədbirlər sırasında ağacəkmə aksiyaları da mühüm yer tutur. Dahi şəxsiyyətin arzularındakı kimi inkişaf edib gözəlləşən yurdumuzda təbiətə, yaşıllığa qayğı məhz Ulu Öndərin müqəddəs ideyalarından biri, gözəl ənənə kimi bu gün də qorunub, yaşadılır. Müxtəlif idarə və təşkilatların əməkdaşları tərəfindən muxtar respublikamızın hər yerində yaz gələndən yaşıllaşdırma işlərinə başlanılıb. Uzun illərdən bəri insanlarımızın əməyi ilə ərsəyə gətirilən yaşıllıqlara qulluq edilir, yeni yaşıllıq sahələri salınır. Növbəti ağacəkmə isə Naxçıvan Dövlət Baytarlıq Xidmətinin əməkdaşları tərəfindən keçirilib.

Qeyd edək ki, xidmətin həyətyanı sahəsində yarım hektar ərazidə 200 müxtəlifnövlü meyvə tingləri əkilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda *"Kətə"* festivalı keçiriləcək

*Aprelin 7-8-də Naxçıvan şəhərində yerləşən "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Kətə" festivalı keçiriləcək.*



Festivalda muxtar respublikanın rayonlarından və Naxçıvan şəhərindən 200-ə yaxın kətə hazırlayan ailə təsərrüfatçısı, o cümlədən digər təsərrüfat subyektləri iştirak edəcək.

Festivalda muxtar respublikanın rayonlarından yığılmış müxtəlif çeşiddə göyərtilərin satışı təşkil olunacaq, həm də onlardan hazırlanacaq kətələr nümayiş ediləcək. Festivala gələnlər müxtəlif çeşiddə kətələrin hazırlanması və süfrəyə təqdim olunmasını canlı izləyəcək, təndirdə bişmiş kətə çeşidlərinin dadına baxmaq imkanı əldə edəcəklər. Musiqi və incəsənət ustaları tədbirə əlavə rəng qatacaqlar.

Festivalda "Ən dadlı kətə" nominasiyası üzrə müsabiqə təşkil ediləcək. Hazırlanan kətələr görünüşü, çeşid müxtəlifliyi və dadına görə münsiflər heyəti tərəfindən qiymətləndiriləcək, qaliblərə diplomlar təqdim olunacaq.

Muxtar respublika sakinlərini və qonaqlarını milli mətbəximizin ləziz təamlarından olan kətələrdən dadmağa dəvət edirik!

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq turnirin qalibi olan gimnastlar mükafatlandırılıb

*Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının Bədii gimnastika bölməsinin 1 məşqçi müəllimi və 5 gimnastı Gürcüstanın Tbilisi şəhərində "Gimnastika hamı üçün" beynəlxalq turnirdə qazandıqları uğura görə mükafatlandırılıblar.*



Bu münasibətlə keçirilən tədbirdə məşqçi və gimnastları təbrik edən Atletika Federasiyasının sədri Rəhman Məmmədov bildirib ki, ölkəmizdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən uşaq, yeniyetmə və gənclərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, fiziki və mənəvi hazırlığının yüksəldilməsi, idmana marağın artırılması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Bunun üçün muxtar respublikanın şəhər və rayonlarında müasir idman infrastrukturu yaradılıb, zallar, idman obyektləri, şahmat məktəbləri tikilərək gənclərin ixtiyarına verilib. Ölkəmizdə bədii gimnastikanın inkişafından da danışan Rəhman Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın bu idman növünə göstərdiyi diqqət və qayğı sayəsində bədii gimnastika yüksək inkişaf dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycanda bədii gimnastika üzrə dünya və Avropa çempionatları keçirilib.

Bildirilib ki, federasiyanın tərkibində fəaliyyət göstərən bədii gimnastika bölməsinin, Naxçıvan Qızlar Liseyində, Naxçıvan Dövlət Texniki Kollecində, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Naxçıvan şəhər, Şərur, Babək, Ordubad, Kəngərli və Şahbuz rayonlarının məktəbdənkənar təhsil müəssisələrində 14 qrupu yaradılıb. Bölmə ilk yaradılanda 70 uşaqla fəaliyyətə başlamışdırsa, hazırda bu qruplarda 300-dən artıq uşaq gimnastikanın sirlərinə yiyələnir. Bölmənin rəhbəri Humay Qafarova Bakı şəhərində keçirilən hakimlik və məşqçilik kurslarında iştirak edərək məşqçilik sertifikatı və hakimlik vəsiqəsi alıb.

Qeyd edilib ki, bölmədə kadr çatışmazlığını aradan qaldırmaq, peşəkar məşqçi-müəllimləri hazırlamaq üçün məşqçilər üçün praktik seminar, bədii gimnastika və xoreoqrafiya kursları təşkil olunub. Bölmədə yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, gimnastlar bir sıra ölkə və beynəlxalq səviyyəli yarışlarda uğurlu nəticələr əldə edirlər. Vurğulanıb ki, 27-30 mart 2023-cü il tarixlərdə Gürcüstanın Tbilisi şəhərində "Gimnastika hamı üçün" beynəlxalq turnir keçirilib. Üç ölkədən 33 komandanın iştirak etdiyi gimnastradada Federasiyanın Bədii gimnastika bölməsinin 1 məşqçi müəllimi və 5 gimnastı da iştirak edərək birinci pillədə qərarlaşıb. Əldə edilən bu uğurlu nəticələrə görə federasiyanın sədri gimnastları təbrik edib, onlara uğurlar arzulayıb.

Sonra Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov qazanılan uğurlar barədə məlumat verib. Humay Qafarova onlar üçün yaradılan şəraitə, göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirib. Tədbirdə bölmənin rəhbəri Humay Qafarova və bölmənin gimnastları Mədinə Novruzluya, Nilufər Kərimliyə, Aydan Hüseyinliyə, Təranə Əlizadəyə, İlay Sanguraya mükafatlar təqdim edilib. Sonda xatirə fotosu çəkilib və gimnastların nümunəvi çıxışlarına baxış olub.

**Ceyhun MƏMMƏDOV**

## Növbəti imtahanlar olub



Aprelin 2-də Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı, mart ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş cari ilin XI sinif şagirdləri üçün buraxılış imtahanı, eksternat qaydasında XI sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı, buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində mərkəzə müraciət edilmiş əvvəlki illərin XI sinif məzunları üçün buraxılış imtahanı keçirilib.

Respublikanın 18 şəhər və rayonunda təşkil olunan imtahanda 27 mindən çox abituriyent iştirak edib. İmtahanların idarə olunması üçün 118 ümumi imtahan rəhbəri, 337 imtahan rəhbəri, 2657 nəzarətçi-müəllim, 360 buraxılış rejimi əməkdaşı və 118 bina nümayəndəsi ayrılıb.

Naxçıvan Muxtar Respublikasında 7 binada keçirilən imtahanlarda 1562 şagird iştirak edib. 129 zalda təşkil edilən imtahanların idarə edilməsinə 19 rəhbər, 154 nəzarətçi ayrılıb. İmtahan saat $11^{00}$-da başlayıb və 3 saat davam edib.

Nəticələrin bir ay ərzində elan olunması nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Babək rayon Nehrəm qəsəbə sakini Həsənov İlham İsmayıl oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayon Nehrəm qəsəbə sakini Həsənov Etibar Əjdər oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kültəpə kəndində yaşamış İmamverdiyeva Cahan Abdulla qızının adına olan 164B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 1-ci küçə 63 ünvanda Əliyev Hikmət İzzət oğlunun adına olan A-004433 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 230